

# Mirzə CƏLİL:

Ağlamağımın səbəbi? Ağlamağımın səbəbi budur ki, belə insanların içində yaşamağa məcbur oluram, bir çarəm də yoxdur.

***

Bizim yəqinimizdir ki, dili dolaşıq şəxsin fikri də dolaşıqdır. İbarəpərdazlıq fikrin boşluğuna və bir dərəcədə yoxluğuna dəlalət eləyir. Doğru və salamat fikirli adamların kəlamı həmişə aydın, açıq və düzgün olur.

***

Əməl, əməl, əməl!..

***

Havada uçan quşlar üstümüzə gülür. O səbəbə ki, əcnəbilərin gözü qabağında qarabağlı-bakılı davası düşür...

***

Heç bir fikir sahibinə demək olmaz ki, qandığını at, mən qandığımı tut. Heç bir şairə demək olmaz ki, elə yazma, belə yaz.

***

Həmişə və hər bir məkanda vətən məhz cavanlardan öz nicatını gözləyib.